**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

# S Ə R Ə N C A M I

№ 104 «20» iyun 2024 il

**Yaşayış yeri üzrə Binəqədi Rayon İcra Hakimiyyətində yaşayış sahəsinə ehtiyacı olan qismində uçota dayanmış vətəndaşların mənzil uçotunun təsdiqi barədə**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 12.11.2012-ci il tarixli 218 saylı Sərəncamına əsasən RİH-də yaşayış sahəsinə ehtiyacı olan qismində uçotda olan vətəndaşların mənzil uçotu siyahılarının dəqiqləşdirilməsi məqsədilə komissiya yaradılmışdır.

Komissiya tərəfindən Binəqədi RİH-də ümumi və güzəştli əsaslarla mənzil uçotuna dayanmış 1467 ailənin mənzil uçot işi üzrə araşdırma aparılmış və məlum olmuşdur ki, bir sıra vətəndaşlar ölümü və digər yaşayış sahəsinə köçməsi səbəbindən qeydiyyatdan çıxması ilə əlaqədar və digər səbəblərdən mənzil-uçot siyahılarından çıxarılmalıdırlar.

Qeyd olunanlara, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.9.6-cı və 6.8-ci bəndlərinə və Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 55-ci maddəsinə əsaslanaraq

**Qərara alıram:**

**1.** Binəqədi Rayon İcra Hakimiyyətində yaşayış sahəsinə ehtiyacı olan qismində uçota dayanmış vətəndaşların mənzil uçot siyahısı aşağıdakı qaydada təsdiq olunsun (Adlı siyahı əlavə olunur).

- Ümumi və güzəştli siyahı üzrə- 1467 ailə
- Ümumi əsaslarla- 476 ailə;
- Qarabağ müharibəsi veteranları- 84 ailə;

- Güzəştli əsaslarla mənzil uçotuna götürülmüş ailələrin ümumi siyahısı üzrə- 991 ailə, o cümlədən;

- Şəhid ailəsi- 76 ailə;

- Qarabağ müharibəsinin əlilləri- 133 ailə;

- Böyük Vətən Müharibəsinin əlilləri- 11 ailə;

- “20 Yanvar” faciəsi əlilləri və şəhidləri- 5 ailə;

- Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılmasında iştirak edərkən əlil olmuş şəxslər- 23 ailə;

- Hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslər və ehtiyatda olan zabitlər- 175 ailə;

- Əfqanıstan müharibəsi əlilləri və iştirakçıları- 19 ailə;

- Ümumi xəstəlikdən gözdən əlillər- 71 ailə;

- Uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzun şəxslər- 2

- Ümumi xəstəlikdən və digər səbəblərdən əlil olmuş şəxslər- 392 ailə

**3.** Sərəncamın surəti məlumat üçün Binəqədi RİH-nin qəsəbə nümayəndəliklərinə və rayon MKTB-ə göndərilsin, həmçinin mənzil uçotundan çıxarılmaları barədə vətəndaşlara 3 iş günü ərzində məlumat verilməsi qəsəbə nümayəndəliklərinə və rayon MKTB-ə tapşırılsın.

**4.** Sərəncamın və ona əlavə edilmiş siyahıların surətləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Sosial Xidmətlər Agentliyinə göndərilsin.

**5.** Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hacıbaba Babayevə həvalə edilsin.

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti

**Elxan Allahverdiyev**